

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 may 2026-cı il №35 (3037) https://mod.gov.az Qiymətı 30 qəpik


Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2026-cı il

*Reportaj*



## Vətən müdafiəçisi olmaq ən ali vəzifədir

Səhərin erkən işartısı dağların ətəyi ilə səssizcə süzülür. Hava hələ tam aydınlanmasa da, döyüş növbətçiliyi aparılan mövqelərdə həyat öz axarında davam edir. Yaşayış məntəqələrindən uzaqlaşdıqca sükut yaranır. Bir anlıq düşünürəm ki, iqlim dəyişikliyi, relyef çətinliyi, günün vaxtından asılı olmayaraq, Vətən müdafiəçisi əsgərlərimiz müqəddəs vəzifəsini layiqincə, ləyaqətlə yerinə yetirir. Hər anı məsuliyyət və əhəmiyyət kəsb edən bu vəzifənin icrası ən ümdə tapşırıq olaraq, vətənpərvər Azərbaycan əsgərinin güclü çiyinləri üzərindədir. Döyüş növbətçiliyində Vətənin ərazi və ya torpaq olduğu deyil, nəfəs olduğu dərindən başa düşülür. Çünki Vətən müdafiəçisi olmaq ən ali vəzifədir.

"N" hərbi hissəsində Vətən müdafiəçisi oğullarımızın ziyarətinə gəlmişik. Gizir Elçin Yaşar oğlu Tağıyev bizi qarşılayır və söhbətə başlayırıq. "2013-cü ildən xidmətdəyəm. Xidmətim müddətində hər zaman atalarımızdan bizə miras qalan torpaqlarımızı, milli kimiliyimizi, məğlubedilməzliyimizi qorumağın vacibliyini əsgərlərimizə izah etmişəm. Bu gün Azərbaycan əsgəri sülh keşikçisi, müqəddəs vəzifə sahibi olaraq, Vətənin müdafiəsindədir. Döyüşçü sələflərinin açdığı cığırda məğrurcasına irəliləyən, üzərinə düşən ümdə vəzifəni layiqincə icra edən əsgərlərimiz döyüş növbətçiliyinin məsuliyyətini və önəmini dərk edərək, vaxtından, hava şəraitindən asılı olmayaraq xidmətini yüksək səviyyədə təşkil edir. Əsgərlərimiz yerinə yetirdiyi müqəddəs vəzifəni dərindən anlayır və xidmətini də qarşıya qoyulan tələblər çərçivəsində təşkil edir. Çünki onlar bilirlər ki, Vətəni qorumaq təkcə torpağı qorumaq deyil, xalqı qorumaq, onun firavanlığını təmin etməkdir".

Söhbət əsnasında müsahibimin 2016-cı ilin Aprel döyüşlərinin, Tovuz döyüşlərinin və İkinci Qarabağ müharibəsinin iştirakçısı olduğunu öyrənirəm. "Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyi istiqamətində döyüşlərdə iştirak etmişəm. Tovuz döyüşlərində Vətənin müdafiəsində durmuşam. Haqq savaşımız olan 44 günlük Vətən müharibəsi zamanı Füzuli, Qubadlı və Cəbrayıl istiqamətində düşmənə qarşı vuruşmuşam. İştirak etdiyim döyüşlərdə qazandığım təcrübələrimi əsgərlərimizlə bölüşürəm. Şükürlər olsun, bu gün ərazi bütövlüyümüz tam, müstəqilliyimiz sarsılmazdır. Bölməmizin mövqeləri dövrün tələblərinə uyğun rabitə, müşahidə və digər zəruri hərbi vasitələrlə təmin edilib. Bununla yanaşı, bölmənin şəxsi heyətinin gündəlik və xidməti fəaliyyətinin icrası üçün də yaradılan şərait yüksək səviyyədədir.

(Ardı 4-cü səhifədə)

## XTQ-nin bölmələrində inspeksiya yoxlaması keçirilib



Cari il üçün təsdiq olunmuş hazırlıq planına uyğun olaraq, Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) N hərbi hissəsində inspeksiya yoxlaması keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə yoxlamanın başlanması münasibətilə Döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni səsləndirilib.

Şəxsi heyətə və maddi-tədris bazasına keçirilən sıra baxışı hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi ilə sona çatıb.

Yoxlama zamanı silah və texnikanın, maddi-texniki təminat vasitələrinin varlığı və vəziyyəti yoxlanılıb. Həmçinin, bölmələrin ərazidə operativ-taktiki və qərargah fəaliyyətləri qiymətləndirilib.

Eyni zamanda, hərbi qulluqçuların fiziki və atəş hazırlıqlarının yoxlanılması məqsədilə onlardan fərdi qaydada normativlər qəbul edilib.

İnspeksiya yoxlamasının sonunda hərbi qulluqçuların nəzəri və praktiki bilik və bacarıqlarının təkmilləşdirilməsi, xidmətin müasir tələblər çərçivəsində təşkili istiqamətində aidiyyəti şəxslərə müvafiq tövsiyələr verilib.

## Azərbaycanın və Türkiyənin istiqlaliyyəti uğrunda vuruşan polkovnik - Aslan bəy Hacızadə (Berkan)



Aslan bəy Nüsrət oğlu Hacızadə 1897-ci ildə Qarabağ əyalətinin Cavanşir qəzasının mərkəzi olan indiki Tərtər şəhərində anadan olub.

1917-ci ildə orta təhsilini bitirdikdən sonra könüllü olaraq hərbi xidmətə yollanıb. Gəncədə yerləşən 5-ci Yelizavetpol Alayında hərbi xidmətə başlayıb. Nizam-intizamı, çevikliyi, hərbi bacarığı ilə seçilən gənc Aslan komandirlərin diqqətini özünə çəkib. Komandirləri bu xüsusiyyətlərini nəzərə alaraq, hərbi təhsil almaq üçün onu 1918-ci ildə Gəncə şəhərində açılan hərbi məktəbə göndəriblər. Təhsilini topçuluq ixtisası üzrə aldıqdan sonra, zabit kimi Azərbaycan Xalq Cümhuriyyəti Ordusunda xidmətini davam etdirib və qısa müddətdə peşəkar artilleriyaçı kimi tanınıb.

(Ardı 5-ci səhifədə)

## Sələflərinin yolunu şərəflə davam etdirirlər



Azərbaycan Ordusunun artilleriya bölmələri yalnız müasir döyüş texnikası ilə deyil, həm də zəngin və bir o qədər də şərəfli tarixə söykənən bir məktəbin davamçılarıdır. Bu məktəb əsrlərin sınağından üzüağ çıxmış, döyüş meydanlarında öz gücünü dəfələrlə sübut etmiş və bu gün də inkişaf edərək yeni zirvələrə doğru irəliləyir. Tarix boyu artilleriya ordunun "uzaqdan danışan dili", dağıdıcı gücü olub.

Tarixin səhifələrini vərəqlədikcə ölkəmizin artilleriya məktəbinin formalaşmasında müstəsna xidmətləri olan böyük sərkərdələrin adları qürurla xatırlanır. Bu sırada tam artilleriya generalı Əliağa Şıxlinskinin adını vurğulamaq yerinə düşər.

(Ardı 4-cü səhifədə)

# Müdafiə Nazirliyinin rəhbərliyi Türkiyəyə səfər edib







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə və nazirliyin digər vəzifəli şəxsləri "EFES-2026" çoxmillətli birgə müştərək təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak etmək üçün Türkiyəyə işgüzar səfər ediblər.



Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş ölkənin milli müdafiə naziri cənab Yaşar Gülerlə, Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev isə həmkarı ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.

Görüşlərdə ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlıqların mövcud vəziyyəti və perspektivləri müzakirə edilib. Hər iki ölkədə həyata keçirilən birgə layihələrin və təlimlərin əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, səfər çərçivəsində Müdafiə Nazirliyinin rəhbər heyətinin Azərbaycan Ordusunun və ümumillikdə 50 ölkədən 10300 hərbi qulluqçunun iştirakı ilə keçirilən "EFES-2026" çoxmillətli birgə müştərək təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün gecə və gündüz mərhələlərində iştirakı planlaşdırılır.



# "EFES-2026" təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün gecə mərhələsi keçirilib







*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Özdərə hərbi düşərgəsində keçirilən "EFES-2026" çoxmillətli birgə müştərək təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün gecə mərhələsini izləyib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qonaqlar tədbir çərçivəsində təşkil olunan Müdafiə Sənayesi Sərgisində nümayiş etdirilən hərbi silah və texnika nümunələri ilə tanış olublar.

Türkiyənin milli müdafiə naziri, Azərbaycan, Gürcüstan, Bosniya və Herseqovina müdafiə nazirləri, eləcə də digər yüksək səviyyəli müşahidəçilər gecə vaxtı şərti düşmən gəmisinin ələ keçirilməsi, sahil mühafizəsinin təşkili, helikopterlər vasitəsilə hava kəşfiyyatının və atəş dəstəyinin təmin edilməsi, artilleriya qüvvələri və digər bölmələr tərəfindən icra edilən müxtəlif tapşırıqların icrasını yüksək qiymətləndiriblər.

Qeyd edək ki, 50 ölkənin hərbi qulluqçularının qatıldığı təlimin əsas məqsədi genişmiqyaslı əməliyyatlar zamanı iştirakçı ölkələrin Quru Qoşunları, Hərbi Dəniz və Hərbi Hava Qüvvələrinin arsenalında olan silah və vasitələrdən birgə istifadə üsullarının və bacarıqlarının təkmilləşdirilməsidir.

Təlimdə, həmçinin hərbi kontingentlər arasında koordinasiyanın gücləndirilməsi, Taktiki Data Link (TDL) sistemlərinin effektiv istifadəsinin təmin edilməsi, hərbi əməliyyatlar zamanı kibertəhlükəsizlik qabiliyyətlərinin inkişaf etdirilməsi və ortaq kibertəhlükəsizlik anlayışının formalaşdırılması nəzərdə tutulub.







# “EFES-2026” təlimində “Yüksək Səviyyəli Müşahidəçi Günü” keçirilib





***Türkiyədə işgüzar səfərdə olan Azərbaycan nümayəndə heyəti İzmirin Doğanbey bölgəsində keçirilən "EFES-2026" çoxmillətli birgə müştərək təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib.***



Müdafiə Nazirliyi xəbər verir ki, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Metin Tokel məruzə edərək təlimin ümumi gedişatı, qarşıya qoyulmuş tapşırıqların məqsədi və yerinə yetirilmə ardıcıllığı barədə məlumat verib.

Qeyd olunub ki, "EFES-2026" təlimində ilk dəfə olaraq T625 GÖKBEY helikopterləri, 105 mm Boran yedəkli haubitsaları, MEMATT minatəmizləmə vasitələri, KARAOK, UMTAS və L-UMTAS tank əleyhinə raket sistemləri, eləcə də ASLAN SARP UKKS insansız yerüstü idarə olunan kəşfiyyat və atəş vasitələrindən istifadə edilir.

Tədbirdə çıxış edən Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler bu cür təlimlərin əhəmiyyətini qeyd edib və hərbi qulluqçulara uğurlar diləyib.

Təlimi izləyən Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan çıxışında "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün iştirakçılarını salamlayıb, "EFES-2026" təliminin regional və qlobal sülhə, əmin-amanlığa və sabitliyə böyük töhfə verdiyini vurğulayıb.

Sonra təlimə cəlb edilən bölmələr praktiki olaraq müxtəlif taktiki epizodları icra ediblər.

Daha sonra yüksək səviyyəli nümayəndələr aviasiya vasitələrinin nümayiş uçuşlarını, xüsusi təyinatlıların paraşüt tullanışlarını və Mehteran Birliyinin çıxışlarını izləyiblər.



"Yüksək Səviyyəli Müşahidəçi Günü" çərçivəsində təşkil olunan Müdafiə Sənayesi Sərgisinə gələn qonaqlar nümayiş etdirilən hərbi silah və texnika nümunələri ilə tanış olublar.

Beynəlxalq təlimdə iştirak edən hərbi qulluqçularımızın peşəkarlığı yüksək qiymətləndirilib.





## Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetlərinin birgə təşkilatçılığı ilə “Gələcəyin müharibələri”, “Əsgər və lider” adlı elmi-praktik Panel müzakirələri keçirilib






***Azərbaycan və Türkiyə Milli Müdafiə Universitetlərinin birgə təşkilatçılığı ilə "Gələcəyin müharibələri", "Əsgər və lider" adlı elmi-praktik Panel müzakirələri keçirilib.***

Milli Müdafiə Universiteti xəbər verir ki, Azərbaycan-Türkiyə 17-ci Yüksək Səviyyəli Dialoq İclasının Protokoluna uyğun olaraq, iki qardaş ölkənin Milli Müdafiə Universitetlərinin heyətlərinin, professor-müəllim heyətinin, həmçinin Universitetin tabeliyində fəaliyyət göstərən bütün təhsil səviyyələri üzrə təhsil müəssisələrinin dinləyici və kursantlarının iştirakı ilə keçirilən panellərdə hərbi təhsil, müasir təhlükəsizlik çağırışları, gələcəyin müharibələrinin çoxaspektli xarakteri, yeni texnologiyalar və süni intellektin hərbi idarəetmədə rolu, əsgər və liderlik məsələləri, eləcə də hərbi-sosioloji aspektlər üzrə geniş fikir mübadiləsi aparılıb.



Panellər hərbi təhsil əməkdaşlığı üzrə təcrübə mübadiləsi və peşəkar hərbi kadr hazırlığının təkmilləşdirilməsi baxımından əhəmiyyətli platforma kimi yüksək qiymətləndirilib.

# Vətən müdafiəçisi olmaq ən ali vəzifədir

(Əvvəli 1-ci səhifədə)



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Loğman Əliyevlə də həmsöhbət olur, şəxsi heyətin gündəlik fəaliyyəti və şəraiti ilə bağlı məlumat alırıq. "Bölməmizdə xidmət edən əsgərlər üçün yaradılan sosial-məişət şəraiti arzuolunandır. Həm xidməti, həm də gündəlik fəaliyyətin lazımi səviyyədə təşkil edilməsi üçün yataq, asudə vaxtının səmərəli keçirilməsi üçün istirahət otağı, yemək və hamam otağı mövcuddur. İsidici və soyuducu sistem və avadanlıqlar mövsümə uyğun olaraq, şəxsi heyətin istənilən hava şəraitinə uyğun xidmət aparması üçün nəzərdə tutulub. Qidalanma norması, gigiyena qaydası, şəxsi heyətin gündəlik rifahını yüksək səviyyədə saxlamaqla, onların xidmətinə olan sevgisini də artırır", - müsahibimlə söhbətimizi başa çatdırırıq.

Gizir Elçin Tağıyevlə birlikdə bölmənin şəxsi heyətinin təlimatlandırılması prosesindən sonra növbətçiliyin təhviltəslimində iştirak etmək üçün hərəkətə davam edirik. Bölmənin hərbi qulluqçusu əsgər Vaqif Səlimovla mövqedə tanış və həmsöhbət oluruq. "Burada hər an Ana Vətəni düşünürəm. Doğmalarımdan uzaq olsam da, Vətən müdafiəçisi olmağım mənə bu yoxluğu hiss etdirmir. Bu vəzifə, vəzifələrin ümdəsi və vətəndaşlıq borcudur. Qoynunda dünyaya göz açdığımız Vətənimizi ürəkdən, qəlbdən sevirik. Ona canımızla, qanımızla bağlıyıq. Müqəddəs missiyanın icraçısı olaraq, üzərimizə düşən məsuliyyəti dərindən hiss edir, xidmətimizi layiqincə təşkil edirik".

Əslən Ağdaş rayonundan olan əsgər Nihad Abdullayev müharibənin bitməsinə baxmayaraq, Vətən qarşısında borcun bitmədiyini söyləyir: "Vətəni həmişə qoruyacaq, onun bütövlüyü, xalqımızın firavanlığı, ordumuzun varlığı üçün əlimizdən gələni edəcəyik. Çünki Vətənə, xalqa xidmət hər birimizin şərəf borcudur. Azərbaycan Ordusu sıralarında keçirdiyim hər an mənim üçün dəyərlidir. Qalib ordunun mundiri ilə Vətən müdafiəçisi olmaq böyük şərəfdir. Azərbaycan əsgəri mərd və qorxmaz olduğunu dəfələrlə sübut edib. Bizim üzərimizə düşən əsas vəzifə isə bu qürur doğuran reallığı daima öz əməlimizlə təsdiq etməkdir".

Əsgər Kərim Qarabəyov Vətən məfhumunun Azərbaycan əsgəri üçün müqəddəs bir varlıq olduğunu bildirir və bizimlə söhbətə başlayır: "Bu varlıq bizim üçün ona görə müqəddəsdir ki, ata-babalarımız bu Vətən torpaqlarında yaşayıb, yaradıb, onu bütöv və toxunulmaz şəkildə özündən sonrakı nəsillərə ötürüb. Böyüklərimizdən bizə miras qalan əmanəti qorumaq isə bizlər üçün müqəddəs amaldır. Bütün ruhumuz ilə Vətənə bağlıyıq. Vətən sevgisi bütün ruhumuzu bürüyüb".

Döyüş növbətçiliyində əsgər Ramil Quliyevin də fikirlərini öyrənirik. "Hər birimiz yaxşı bilirik ki, xalqımızın ordumuza, onun əsgərinə inamı və etimadı yüksəkdir. Fəxr edirik ki, qalib ordunun əsgəri, yenilməz xalqın mənsubuyuq. Burada təcrübəli komandirlərimizin sayəsində istər fiziki, istərsə də mənəvi hazırlığımızı yüksəldir, hərbi vərdişlərimizi təkmilləşdiririk. Bu hazırlığımızın yüksəlməsində isə keçirilən məşqlərin, dərslərin, təlimlərin böyük rolu vardır", - deyən əsgər Quliyev fikrini tamamlayır.

Əsgər Vüqar Məmmədov söhbət əsnasında qeyd edir ki, Vətənin keşiyində dayanmaq ən böyük qürurdur. "Doğma Vətənimiz Azərbaycan daim vətənpərvər övladların məskəni olub. Vətən uğrunda canından keçən mərd oğullarımızın da sayı-hesabı çoxdur. Şəhidlərimiz yazdıqları qəhrəmanlıq salnamələri ilə adlarını əbədi olaraq şanlı tariximizə həkk ediblər. Bu gün şəhidlərimizin qisası alınıb. Vətənimizin hər diyarında şanlı bayrağımız dalğalanır".

Sonuncu müsahibim əsgər Şamxal Cəfərov əslən Ağdam rayonundan olsa da, ömrü ailəsi ilə birlikdə doğma diyarından uzaq, qaçqın düşmüş şəkildə keçib. "Bir zamanlar səngərdə qurulan arzular indi işğaldan azad olunmuş tarixi ərazilərimizdə reallaşır. Bu gün qaçqın düşdüyüm torpaqlarda həyat yenidən canlanır. Xəritədə baxdığım kəndimizi indi canlı görmək mənə qismət olub. Dağıdılmış, viran qoyulmuş evlərdə artıq ümid doğur. Bu torpaq üçün candan keçənlər və döyüşənlər Vətənimizi yaşadırlar. Sevinirəm ki, bu gün rəşadətli ordumuzun mundirini üzərimdə daşıyıram. Qalib xalqın əsgəri olaraq, Vətən müdafiəçisiyəm. Sözlə ifadə edilməsi mümkün olmayan hissləri bu gün yaşayıram. Qələbələrimizin, uğurlarımızın davamlı olması diləyi ilə, yaşasın Azərbaycan!" - əsgər deyir.

İgid Vətən müdafiəçilərimizin keşiyində durduğu Vətən ünvanından ayrılırıq. Əsgərlərimizlə söhbətdən sonra bir daha əmin oluram ki, Vətən keşikçilərinin ayıq-sayıqlığı sabaha olan ən böyük təminatdır. Məhz onların Vətən sevgisi, bu yolda qətiyyəti bizim inamımızın, etimadımızın təsdiqidir. Bu sevgi var olduqca inamımız, etimadımız və firavanlığımız heç zaman sarsılmayacaq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



# Sələflərinin yolunu şərəflə davam etdirirlər

(Əvvəli 1-ci səhifədə)

O, yalnız bir hərbçi deyil, artilleriya elminin banilərindən biridir. Döyüş taktikasına gətirdiyi yeniliklər, atəşin idarə olunması ilə bağlı irəli sürdüyü prinsiplər onun "Artilleriyanın Allahı" kimi tanınmasında xüsusi rol oynayıb.

Tam artilleriya generalı Əlağa Şıxlinski ilə yanaşı, hərb tariximizin digər böyük siması Səməd bəy Mehmandarov da artilleriya sahəsində mühüm rol oynamışdır. Onun rəhbərliyi altında artilleriya bölmələri yüksək təşkilatlanma və dəqiqlik nümayiş etdirmiş, milli hərbi ənənələrin formalaşmasına ciddi töhfələr vermişdir.

Birinci Qarabağ müharibəsi zamanı Milli Qəhrəman İsgəndər Aznaurov könüllü olaraq cəbhəyə yollanıb. Artilleriya sahəsindəki təcrübəsi onu cəbhə bölgəsində seçilən bir döyüşçüyə çevirib. O, Gədəbəyin müdafiəsində müstəsna xidmətlər göstərib. Onun dəqiq nişangahlı topları düşmən mövqelərini darmadağın edirdi, hər döyüşü bir qəhrəmanlıq dastanına çevrilirdi. Elə bu səbəbdən də döyüş yoldaşları ona ehtiramla "Topçu İsgəndər" deyirdilər.

Zaman dəyişdikcə artilleriya qurğuları daha da müasirləşərək yeni texnologiyalarla zənginləşib. Müasir dövrdə artilleriya artıq təkcə toplardan ibarət deyil, yüksək dəqiqlikli, uzaqmənzilli və koordinasiyalı zərbə sistemlərinin bütöv bir kompleksidir. Bu kontekstdə operativ-taktiki raket kompleksi kimi silahlar artilleriyanın gücünü daha da artırır, onun strateji əhəmiyyətini yüksəldir.

Azərbaycan Ordusunun artilleriya bölmələrinin gücü İkinci Qarabağ müharibəsi zamanı bir daha bütün dünyaya nümayiş etdirildi. Döyüşlərin ilk anlarından etibarən artilleriyaçılarımız düşmənin mühəndis-istehkam xətlərini darmadağın edərək irəliləyən qüvvələr üçün yol açdılar. Dəqiq atəş zərbələri nəticəsində düşmənin canlı qüvvəsi, texnikası və strateji əhəmiyyətli legitim hərbi obyektləri məhv edildi. 44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, artilleriya da döyüşün taleyini həll edən əsas qüvvələrdən biridir.

Biz də məhz bu şərəfli ənənənin davamçıları olan artilleriya bölmələrinin gündəlik fəaliyyətini yaxından izləmək üçün onların məşq yerində olduq. İlk baxışdan burada mövcud olan nizam-intizam, dəqiqlik və məsuliyyət hissi diqqəti cəlb edirdi. Hər bir hərbi qulluqçu öz vəzifəsini bilir, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirməyə çalışırdı.



Vətən müdafiəçiləri məşğələlərdə öyrəndikləri nəzəri bilikləri praktiki təkmilləşdirirdilər. Artilleriya qurğularının "döyüşə" və "səfərə" vəziyyətinə gətirilməsi, koordinatların hesablanması, atəşin idarə olunması kimi proseslər real şəraitə uyğun şəkildə məşq etdirilirdi. İgid əsgərlərimizin tapşırıqları dərhal və dəqiq yerinə yetirməsi bizdə xoş əhval-ruhiyyə yaradırdı. Dərs prosesini izlədikcə fəaliyyətlərin komanda şəklində düzgün icrası bölmədə mövcud olan nizam-intizamdan xəbər verirdi.

Yaranan fasilədən istifadə edib heyət nəfərləri ilə həmsöhbət olmaq imkanı qazandıq. İlk həmsöhbətim Vətən müharibəsi iştirakçısı olan top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babək Əhmədov oldu. Hərbi qulluqçumuz bildirdi ki, keçirilən məşğələlərin əsas məqsədi heyətlərin praktiki vərdişlərinin daha da təkmilləşdirilməsidir. "Çalışırıq ki, məşğələlərdə artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərini, döyüşlərdə effektiv tətbiqi qaydalarını əsgərlərə daha dərindən aşılayaq. Gördüyünüz kimi, şəxsi heyət məşğələlərdə həvəslə iştirak edir, onlara öyrədilən bilikləri daha yaxşı mənimsəməyə çalışırlar. Əsgərlərimizin məşğələlərə olan həvəsini gördükcə biz daha da ruhlanır, onların bacarıqlı Vətən müdafiəçiləri kimi formalaşması üçün əlimizdən gələni əsirgəmirik".

Əsgərlər Mövsüm Talıbov, Rahim Nurəliyev, Elçin Əhmədov, Allahverdi Quliyev və digərləri keçirilən məşğələlərin önəmindən danışaraq qeyd etdilər ki, komandirlərimiz bizə hər şeyi izah edir, səhvlərimizi düzəltməyimiz üçün köməklik göstərirlər. Onların qayğıkeş, eyni zamanda, tələbkar münasibəti bizə daha inamlı olmağa kömək edir.

Vətən qoruyucularımızın fikirlərindən aydın olur ki, artilleriya bölmələrində yüksək səviyyədə keçirilən məşğələlər hərbi qulluqçuların peşəkarlığının daha da artırılmasına yönəldilib. Burada hər bir detal diqqətlə öyrədilir, hər bir səhv üzərində işlənilir və nəticədə yüksək hazırlıqlı hərbi qulluqçular formalaşdırılır.

Məşğələ yerində müşahidə etdiyimiz ən vacib məqamlardan biri də kollektiv ruh idi. Əsgərlər bir-birinə dəstək olur, bir komanda, vahid orqan kimi fəaliyyət göstərirdilər. Bu isə artilleriya kimi koordinasiya tələb edən sahədə olduqca vacibdir.

Bütün bunlar onu deməyə əsas verir ki, artilleriya bölmələri bu gün yalnız müasir texnika baxımdan deyil, həm də mənəvi-psixoloji hazırlıq baxımından yüksək səviyyədədir.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Sədərək döyüşlərinin ildönümü münasibətilə anım tədbirləri keçirilib



*Sədərək döyüşlərinin ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikasında silsilə tədbirlər təşkil olunub.*

Sədərək rayon İcra Hakimiyyəti və Naxçıvan "Şəhid Ailələri" İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutan mərasimlər Şərur rayon Şəhidlər xiyabanından start götürüb.

Ziyarətçilər igid Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər çiçəklər düzərək ruhlarına dualar oxuyublar.

Anım proqramı daha sonra Sədərək rayon Şəhidlər xiyabanında davam etdirilib.

Mərasimlərdə Ali Məclisin deputatları, Sədərək və digər rayonların icra hakimiyyətlərinin rəhbərləri, aparat əməkdaşları, idarə və müəssisə rəsmiləri iştirak ediblər. Həmçinin şəhid ailələri, müharibə veteranları, məktəblilər, ictimaiyyətin nümayəndələri, eləcə də Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları və Daxili İşlər Nazirliyinin polis əməkdaşları tədbirə qatılıblar. Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlərdə Sədərək döyüşlərində iştirak etmiş igidlərin keçdiyi şərəfli döyüş yoluna nəzər salınıb. Natiqlər qeyd ediblər ki, cəsur oğullarımızın Naxçıvanın müdafiəsində göstərdikləri mərdlik, qətiyyət və fədakarlıq xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifələrindəndir.



Çıxışlar zamanı xüsusi vurğulanıb ki, həmin taleyüklü dövrdə Naxçıvana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, qətiyyətli addımları və xalqla çiyin-çiyinə nümayiş etdirdiyi sarsılmaz iradə muxtar respublikaya qarşı planlaşdırılan genişmiqyaslı hərbi təcavüzün qarşısını alıb. Əhalinin vahid mövqedən çıxış etməsi və milli həmrəylik nümayiş etdirməsi Naxçıvanın daha böyük faciələrlə üzləşməməsində mühüm rol oynayıb.



Bildirilib ki, Sədərək döyüşlərində qəhrəmancasına həlak olan igidlərimizin mübarizəsi bu gün gənc nəsil üçün böyük vətənpərvərlik örnəyi olmaqla yanaşı, Vətən müharibəsində Zəfər qazanan Azərbaycan əsgərinin mənəvi güc və ruh mənbəyinə çevrilib.

Anım tədbirləri, eyni zamanda, muxtar respublikanın Culfa, Kəngərli və digər bölgələrində də təşkil olunub. Həmin rayonlarda da şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib, mazarları ziyarət olunub və xatirə şəkilləri çəkdirilib.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan "Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

---

(Əvvəli 1-ci səhifədə)

## Görkəmli şəxsiyyətlər

# Azərbaycanın və Türkiyənin istiqlaliyyəti uğrunda vuruşan polkovnik - Aslan bəy Hacızadə (Berkan)

Fevral inqilabından sonra Zaqafqaziya Komissarlığının tələbi ilə Cənubi Qafqazı tərk edən Rusiya hərbi hissələri silahlarını təhvil verməli idilər. Lakin bir çox hallarda rus qoşun hissələri silahları təhvil vermək istəmirdilər. 1918-ci il yanvarın 9-da Gürcüstandan Azərbaycana keçən rus ordusuna aid hərbi eşelonların silahları təhvil verməməsi Şamxor (indiki Şəmkir) hadisəsinə səbəb oldu. Döyüşdə könüllü dəstələrlə birgə Aslan bəy Hacızadənin xidmət keçdiyi 5-ci Yelizavetpol Alayı da iştirak edib. Tərk-silah edilən rus ordusundan 20 ədəd top, 70 ədəd pulemyot, 15000 ədəd tüfəng ələ keçirilərək Müsəlman Korpusuna təhvil verilib.

Qafqaz İslam Ordusu Bakı şəhərini işğaldan azad etdikdən sonra 1918-ci il sentyabrın 23-dən Qarabağdakı azğınlaşmış işğalçı erməni-bolşevik silahlı dəstələrini təmizləmək üçün Qarabağ hərəkatı başlayıb. Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı qüvvələrinə Cemil Cahid bəy Toydemir komandanlıq edib. Qarabağ hərəkatına qatılan qüvvələrə 9-cu və 106-cı türk alayları, milli könüllü birliklər və 1-ci Azərbaycan diviziyası daxil idi. Aslan bəy bu döyüşlərə baş leytenant Cahangir bəy Novruzovun komandiri olduğu topçu batareyasının tərkibində qatılıb. Qafqaz İslam Ordusu oktyabrın 4-də Ağdamdan başlayaraq Şuşa istiqamətində hücuma keçib. Əsgəran ətrafındakı güclü döyüşlərdən sonra oktyabrın 6-da Əsgəranla Şuşa arasında olan Əyri kənd yaxınlığında da şiddətli döyüşlər baş verib. 1918-ci il oktyabrın 8-də isə Qafqaz İslam Ordusu Şuşa şəhərinə daxil olub.



Aslan bəy Hacızadə və həyat yoldaşı Hümeyra xanım

Aslan bəy Hacızadə əvvəlcə Gəncə üsyanında, daha sonra isə 1920-ci ilin iyununda Nuru Paşanın komandanlığı ilə Qarabağ üsyanında iştirak edib.

1920-ci il iyunun 10-da Qırmızı Ordu qüvvələri üsyançılara qarşı bütün cəbhə boyu hücuma keçiblər. Üsyançılar sayca üstün olan və döyüşdə zirehli avtomobillərdən, hərbi təyyarələrdən istifadə edən Qırmızı Orduya qarşı mübarizə apara bilməyərək geri çəkilməyə məcbur olublar.

Sovet işğalına qarşı baş qaldırmış üsyanlar məğlub olduqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun sağ qalan hərbçilərinin bir qismi polkovnik Nuh bəy Sofiyevin komandanlığı ilə Qaryagin və Cəbrayıl istiqamətində geri çəkilərək Araz çayını keçməklə, bir qismi Zəngəzuru keçərək Naxçıvana, digər qismi isə Xudafərin istiqamətindən İrana keçib, oradan isə Türkiyəyə gediblər. Türkiyəyə gedən azərbaycanlı hərbçilərin arasında Aslan bəy Hacızadə də olub.

Aslan bəy 1920-ci ilin payızından başlayaraq 1921-ci ilin əvvəllərinə qədər Şərqi Anadolunun erməni daşnaklarından təmizlənməsi ilə sona çatan "Doğu" hərəkatında iştirak edib. Sarıqamışın, Qarsın, İğdırın, Kağızmanın, Gümrünün geri alınması uğrunda döyüşlərə qatılıb. Qarsın Bənli Əhməd kəndi yaxınlığında Berna meydan müharibəsində toplardan dəqiq atəş açması ilə xüsusilə fərqlənib. Qurtuluş Savaşından sonra orduda qalaraq hərbi xidmətini davam etdirib. 1922-ci il avqustun 26-30-da baş verən Dumlupınar döyüşündə, 1925-ci ildə Şeyx Səid üsyanının, 1926-cı ildə 1-ci Ağrı, 1927-ci ildə 2-ci Ağrı qiyamlarının yatırılmasında iştirak edib.

1928-ci ildə Topçu məktəbindən məzun olduqdan sonra "baş leytenant" (üst teymən) rütbəsi ilə təltif edilərək, Sivas şəhərində yerləşən Topçu Alayında batareya komandiri vəzifəsinə təyin edilib.

Türkiyəyə mühacirət etdikdən sonra bir müddət "Aslan Qarabağlı" kimi tanınıb. 1934-cü il iyunun 21-də Türkiyədə qəbul edilmiş "Soyad qanunu"ndan sonra özünə "Berkan" soyadını götürüb.



1933-cü ildə "kapitan", 1940-cı ildə "mayor", 1946-cı ildə "polkovnik-leytenant" rütbəsi ilə təltif olunan Aslan Berkan 1950-ci ildə nümunəvi xidmətləri nəzərə alınaraq Türkiyə Silahlı Qüvvələrinin komandanlığı tərəfindən "polkovnik" rütbəsinə layiq görülüb. Hərbi xidmətinin son illərini Azərbaycanda hərbi xidmətə başladığı ilk günlərdən yoldaşlıq etdiyi, bir çox müharibələrdə çiyin-çiyinə savaşdığı general-mayor Cahangir Bərkərin komandanlığı altında İzmir şəhərində davam etdirib. 1955-ci ildə yaş həddi ilə əlaqədar olaraq təqaüdə çıxdıqdan sonra da İzmir şəhərində yaşayıb.

Aslan Berkan Sivasda xidmət etdiyi vaxt İstiqlal savaşının qəhrəmanlarından olan yüzbaşı Tofiq bəyin bacısı Hümeyra xanımla ailə həyatı qurub. Bu nikahdan Türkan adlı qızı, Mete adlı oğlu dünyaya gəlib. Qızı Türkan xanım Şadi Sayarla ailə həyatı qurub. Oğlu Mete isə 19 yaşı olarkən özünü dənizə ataraq intihar edib. Oğlunun itkisi Aslan bəyə olduqca pis təsir edib, bu dərddən xəstəliyə düçar olub, oğlunun ölümündən 1 il sonra - 7 may 1957-ci ildə infarkt (ürək tutması) səbəbindən dünyasını dəyişib. Təntənəli hərbi mərasimlə İzmirdə Karşıyakada Soyuqquyu məzarlığında oğlunun məzarı yanında dəfn edilib.

**"Azərbaycan Ordusu"**

*Əsgərə məktub*

# Balaca ürəklərdən Vətən müdafiəçilərinə



***Vətən sevgisi insanın qəlbində hələ uşaqlıq illərindən formalaşmağa başlayır. Bu sevginin təməli isə, ilk növbədə, ailədə, daha sonra məktəb və digər təhsil ocaqlarında qoyulur. Məktəb yalnız bilik verilən məkan deyil, eyni zamanda, Vətəninə bağlı, milli ruhda böyüyən şəxsiyyətlərin yetişdiyi müqəddəs bir ocaqdır. Uşaqların saf və təmiz duyğularında doğma yurda bağlılıq daha səmimi, daha təsirli şəkildə özünü göstərir. Balaca məktəblilərin Vətən müdafiəçilərinə ünvanladıqları məktublar da bunun ən duyğulu nümunələrindən biridir. Onların hər bir cümləsində şəhidlərimizə sonsuz ehtiram, Azərbaycan əsgərinə böyük sevgi, qalib ordumuza dərin inam və qürur hissi açıq şəkildə hiss olunur.***



Paytaxtdakı 153 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdləri də məhz belə kövrək və ülvi hisslərlə şəhidlərimizin əziz xatirəsinə, həmçinin Azərbaycan Ordusunun cəsur əsgərlərinə məktublar ünvanlayıblar. Balaca məktəblilərin qələmə aldıqları fikirlərdə Vətən sevgisi, igid oğullarımıza sonsuz ehtiram, torpaqlarımızın azadlığı uğrunda göstərilən şücaətə duyulan qürur və işıqlı gələcəyə böyük ümid hiss olunur. Hər sətirdə uşaqların təmiz qəlbi, saf niyyəti və vətənpərvər ruhu öz əksini tapır.

Məktublarda uşaqların kövrək duyğuları ilə yanaşı, onların yaşlarından daha böyük düşüncəyə sahib olduqları da aydın görünür. Balaca ürəklərdə böyüyən Vətən sevgisi hər cümlədə özünü göstərir. Onların yazdıqları fikirlərdən hiss olunur ki, bugünkü məktəblilər Azərbaycanın qəhrəmanlıq tarixini, şəhidlərimizin, hərbi qulluqçularımızın göstərdiyi fədakarlığın dəyərini dərk edirlər.

**Nuray Əhmədova** məktubunda şəhidlərimizin qəhrəmanlığından böyük qürur hissi ilə bəhs edib. O, qələmə aldığı sətirlərdə Vətən uğrunda canından keçən igidlərimizin xalqımızın yaddaşında əbədi yaşayacağını vurğulayıb: "Qəhrəman şəhidlərimizin igidliyi və Vətənə olan sonsuz sevgisi heç vaxt unudulmayacaq. Onlar torpaqlarımızın azadlığı uğrunda canını fəda edərək xalqımızın qüruru oldular. Əziz şəhidlərimiz, ruhunuz şad olsun, sizin hər birinizə minnətdarıq. Yazdığınız tarix tariximizdə əbədi yaşayacaq!".

Balaca məktəblinin bu sözlərində Azərbaycan övladına xas olan böyük ehtiram və minnətdarlıq duyulur. Çünki bu gün azad, müstəqil və qalib ölkənin vətəndaşları olaraq rahat yaşamağımızın arxasında məhz şəhidlərimizin qəhrəmanlığı, hərbçilərimizin fədakarlığı dayanır. Onların qanı və canı bahasına əldə olunan Zəfər xalqımızın ən böyük qürur mənbəyinə çevrilib.

**Mədinə Gülverdiyeva** isə məktubunda tarixi Qələbədən bəhs edərək azərbaycanlı olduğu üçün qürur duyduğunu qeyd edib. Onun səmimi və duyğulu fikirləri hər bir azərbaycanlının qəlbində yaşayan fəxr hissinin ifadəsinə çevrilib: "Nəhayət, arzumuza çatdıq, doğma torpaqlarımızı düşməndən azad etdik. Mənim əsgər qardaşım, sənin şücaətin, mərdliyin, şəhidlərimizin qəhrəmanlığı və canı bahasına biz bu gün qalib xalqıq. Mən, azərbaycanlı olduğuma görə fəxr edirəm".





Bu cür düşüncələr bir daha göstərir ki, böyüməkdə olan nəslin ruhunda artıq qalib Azərbaycanın nəfəsi yaşayır. Onlar yaxşı anlayırlar ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyi böyük qəhrəmanlıqlar hesabına bərpa olunub. Bu tarixi Zəfərin dəyəri isə onların saf düşüncələrində xüsusi yer tutur.

**Züleyxa Hüseynzadə** məktubunda hərbi xidmətin çətinliyindən bəhs edərək, Azərbaycan əsgərinə dərin minnətdarlığını bildirir. O qeyd edir ki, məhz qəhrəman əsgərlərimizin cəsarəti və qətiyyəti sayəsində müqəddəs üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır. Balaca məktəblinin bu fikirləri göstərir ki, uşaqlar ordumuzun gördüyü böyük işlərin məsuliyyətini və əhəmiyyətini ürəkdən hiss edirlər.

**Aylin Rüstəmova** isə şəhidlərimizin xalqımız üçün əbədi qürur mənbəyi olduğunu vurğulayır. O, məktubunda Vətən uğrunda canını fəda edən qəhrəmanların daim hörmətlə anılacağını qeyd edib: "Şəhidlərimiz Vətən sevgisinin və fədakarlığın ən uca nümunəsidir. Onlar doğma torpaqlarımızın müdafiəsi uğrunda həyatlarını fəda edərək xalqımızın qəlbində əbədi yer qazandılar. Buna görə də onların müqəddəs xatirəsi hər zaman böyük ehtiram və minnətdarlıq hissi ilə anılacaq".

Bu fikirlərdə uşaqların milli-mənəvi dəyərlərimizə bağlılığı aydın şəkildə görünür. Şəhidlərimizin əziz xatirəsinin daim uca tutulması, onların keçdiyi qəhrəmanlıq yolunun gələcək nəsillərə çatdırılması hər bir vətəndaşın müqəddəs borcudur. Aylin kimi məktəblilərimizin düşüncələri də göstərir ki, təhsil ocaqlarında vətənpərvərlik ruhu şagirdlərə düzgün və doğun şəkildə aşılanır.

**Sofiya Seyidzadə** məktubunda Vətənin keşiyində ayıq-sayıq dayanan Azərbaycan əsgərini ölkəmizin sarsılmaz qalxanı adlandırır. O bildirir ki, ordumuzun igid hərbi qulluqçuları ata-babalarımızdan bizə miras qalan torpaqlarımızın keşiyində mərdliklə dayanır, Vətəni gözbəbəyi kimi qoruyurlar. Bu sözlərdə uşaqların əsgərlərimizə olan sonsuz güvəni və sevgisi aydın hiss olunur.



**Banu Oruclu** da məktubunda Azərbaycan əsgərinin göstərdiyi igidliyə görə onlara minnətdarlığını ifadə edib. O yazır: "Əziz əsgər, sən bizim qürur mənbəyimizsən. Cəsarətinlə gecə-gündüz, isti-soyuq demədən bizi qoruyursan, Ana Vətənimizin müdafiəsində dayanırsan. Cəsarətinə və Vətənə olan sonsuz sevginə görə sənə minnətdarıq!".

Balaca məktəblinin səmimi və kövrək sözlərində əsgərlərimizə duyulan böyük sevgi və ehtiram öz əksini tapır. Həqiqətən də, döyüş meydanında şücaətlər göstərərək tarix yazan Azərbaycan əsgəri hər zaman xalqımızın güvənc yeri, qürur mənbəyi olub.

Məktub yazan şagirdlər arasında **Dinara Əliyeva, Məcid Məmmədov, Asiya Məmmədova, Hüseyn İmanov, Dəniz Sultanlı, Nigar Abdulla, Ramal Fətullayev, Nilufər Qurbanova, Kərim Zeynalov** və **Banu Mahmudova** da yer alırlar. Onların hər biri yazdıqları sətirlərdə Azərbaycan Ordusuna olan sevgilərini, şəhidlərimizin əziz xatirəsinə bəslədikləri hörməti və Vətənə bağlılıqlarını ifadə ediblər. Məktublarda həm Zəfər sevinci, həm cəsur əsgərlərimizə sonsuz minnətdarlıq, həm də gələcəkdə Vətənə layiqli övlad olmaq arzusu xüsusi yer tutur. Bu saf arzular isə gələcəyimizin etibarlı əllərdə olduğunu göstərir.




Belə təşəbbüslər məktəblilər arasında vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə, gənc nəslin milli ruhda yetişməsinə mühüm töhfə verir. Vətənə sevgi ilə böyüyən uşaqlar gələcəyin layiqli vətəndaşları, dövlətinə və xalqına bağlı övladları kimi formalaşırlar. Çünki bu sevgi məhz belə saf duyğularla başlayır.

Bu məktublar bir daha sübut edir ki, Azərbaycan xalqı öz ordusu və onun igid övladları ilə qürur duyur. Əsgərlərimiz isə xalqımızın, o cümlədən uşaqların bu sevgisini və etimadını hiss etdikcə Vətənin keşiyində daha böyük inam, daha möhkəm iradə ilə dayanırlar.

Məktəblərdə şagirdlərə vətənpərvərlik hissinin aşılanması, onların milli ruhda formalaşdırılması təhsil prosesinin ən vacib istiqamətlərindən biridir. Müəllimlər tərəfindən uşaqlara Vətən sevgisinin, dövlətə bağlılığın, şəhidlərimizə hörmət və əsgərlərimizə ehtiram hissinin aşılanması gələcək nəslin sağlam milli düşüncə ilə yetişməsində mühüm rol oynayır. Bu gün məktəblərdə keçirilən tədbirlər, vətənpərvərlik mövzusunda aparılan söhbətlər, şəhidlərimizin xatirəsinə göstərilən ehtiram uşaqların düşüncəsində doğma yurda bağlılığı daha da gücləndirir. Çünki Vətən sevgisi yalnız sözlə deyil, həm də düzgün tərbiyə, milli dəyərlərə bağlılıq və mənəvi örnəklərlə formalaşır.

Balaca ürəklərdən gələn səmimi məktublar əsgərlərimiz üçün ən qiymətli mənəvi dəstəyə çevrilir. Çünki, Vətən müdafiəçilərimiz yaxşı bilirlər ki, geridə güclü bir xalq, işıqlı gələcəyimiz olan uşaqlar və sonsuz sevgi dayanır. Bu sevgi isə Azərbaycan əsgərinə hər zaman güc verir, onu müqəddəs borcu ödəmə kimi şərəfli vəzifədə daha qətiyyətli edir.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: İnformasiya təhlükəsizliyi.

**Suallar:**

1. İnformasiya haqqında əsas anlayışlar.
2. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti.
3. İnformasiya təhlükəsizliyi və ona qarşı yönəlmiş təhdidlər.
4. Hərbi qulluqçu və informasiya təhlükəsizliyi.

### İnformasiya haqqında əsas anlayışlar

İnformasiya istehsal faktoru olaraq cəmiyyət üçün imtina edilməz və çox vacib amildir. İnformasiya ətraf mühit haqqında istənilən məlumatdır. O, təkcə texnologiyalarla emal olunan anlayış olaraq deyil, hər hansı bir təşkilatın tərkibində müxtəlif quruluşlarda mövcud ola bilər. Mütəxəssislərin araşdırmalarına görə informasiya aşağıdakı mühitlərdə mövcud ola bilər:

- **Fiziki mühit:** kağız, taxta, faks, qutular, şkaflar və s.;
- **Elektron mühit:** kompüterlər, mobil qurğular, elektron poçt, yaddaş qurğuları və s.;
- **Sosial mühit:** telefon danışıqları, söhbətlər, yemək fasilələri, nəqliyyat vasitələri və s.;
- **Təqdimat platformaları:** internet saytları, broşürlər, reklamlar, təqdimatlar, təlimlər, video və ya digər vizual mühitlər.

İnformasiyanın ən vacib amillərdən birinə çevrildiyi vaxtda onun təhlükəsizliyi də olduqca vacibdir. Çünki informasiya kimi onun təhlükəsizliyi də təşkilatlar, fiziki şəxslər, dövlətlər və digər subyektlər üçün böyük əhəmiyyət kəsb edir. İnformasiya təhlükəsizliyini sadəcə informasiya sistemlərinin təhlükəsizliyi olaraq dəyərləndirmək düzgün deyil. Çünki informasiya sadəcə sistemlərdə deyil, müxtəlif mühitlərdə mövcuddur. Buna görə də informasiya təhlükəsizliyinin təmin olunmasından bəhs etdikdə "informasiya" anlayışı yalnız informasiya sistemlərində yerləşən informasiyanı əhatə etmir.

İnformasiya təhlükəsizliyi dedikdə informasiyanın və informasiya mühitinin təsadüfi  və ya düşünülmüş, təbii və ya süni xarakterə malik təsirlərdən müdafiə vəziyyəti başa  düşülür. Belə təsirlər informasiyaya və ya informasiya obyektlərinə, həmçinin informasiya istifadəçisinə və sahibinə yolverilməz ziyanlar vura bilir.

İnformasiyanın mühafizəsi - informasiya təhlükəsizliyinin təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərdir. İndiki zamanda informasiyanın təhlükəsizliyi ən çox yayılmış üç əsas xüsusiyyətə əsaslanır: konfidensiallıq, tamlıq və əlçatanlıq.

İnformasiyanın konfidensiallığı həddindən artıq məhdud dairədə olan insanlar ilə tanış olmağın mümkünlüyünü ifadə edir. Bu insanlar informasiya sahibləridirlər. Əgər informasiyanı bu şəxslərdən başqa icazəsi olmayan digər şəxslərdə istifadə edə bilirlərsə, onda informasiyanın konfidensiallığı itmiş olur. Bəzi informasiya növləri üçün konfidensiallıq əsas atribut sayılır (məsələn, hərbi hissəyə dair məlumatlar, strateji tədqiqatlarla bağlı olan məlumatlar, tibbi qeydlər, sığorta ilə bağlı yazılar və s.). Bəzi hallarda konkret şəxslər barədə olan məlumatlarda da konfidensiallığı saxlamaq lazımdır (məsələn, hərbi qulluqçu haqqında informasiyanı, tibbi müəssisələrdə pasientlərin vəziyyəti haqqında məlumatları və s).

### Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti

Müasir dövrdə informasiya axınının dünyanın hər yerində sürətləndiyi bir vaxtda hətta informasiyanı daha çox yaradan ölkələr belə yaratdıqlarının "əsirinə" çevrilirlər. Bu, artıq dünyanı bürüyən ciddi bir təhlükədir. İnsanlar hər an informasiyaların təsirində, hətta təhdidindədirlər. İnformasiya insanların əhvalına sürətlə təsir edir, onları yönləndirir.

İnformasiya texnologiyasının inkişafı ilə əlaqədar daha asan və tez əldə edilən informasiya dövlətin və cəmiyyətin özünü ifadə etmək baxımından ideal vasitə hesab edilir. Bu səbəbdən son zamanlar iqtisadiyyatda, siyasətdə və hərbdə "informasiya əməliyyatı", "informasiya müharibəsi" və "informasiya qarşıdurması" terminləri geniş istifadə edilir. Dünyada informasiya müharibəsi texnologiyalarının inkişafı və dövlətlər arasında baş verən hərbi və siyasi qarşıdurmalar belə söyləməyə əsas verir ki, yaxın gələcəkdə qarşı tərəf üzərində üstünlük informasiyanın ələ keçirilməsi, onlara tez reaksiya verilməsi, real vaxt çərçivəsində qarşı tərəfin informasiya mənbələrinin məhv edilməsi ilə əldə olunacaq. Bu gün cəmiyyətdə milli informasiya resurslarının mühafizəsi məsələsi çox aktualdır. İnkişaf etmiş dövlətlər tərəfindən informasiya silahının tətbiqi və qlobal informasiya infrastrukturunun yaradılması bu ölkələrin dünyada lider ölkə olmaq ideyasından irəli gəlir. İnternet açıq informasiya şəbəkəsinin genişlənməsi, kompüter cinayətkarlığının artması, siyasi və iqtisadi məqsədlərə çatmaq üçün yüksək səviyyədə informasiya hücumu təhlükələrinin çoxalması informasiya müharibəsi və informasiya təhlükəsizliyi kimi məsələlərin aktuallığına səbəb olub.

Müasir dünya geosiyasətində informasiya və təbliğatın beynəlxalq ictimai rəyə təsir imkanlarından geniş danışılır. Hazırda bir ölkənin başqa dövlətin ərazisində mövcud informasiya sistemlərini nəzarət altına alması və yaxud idarə etməsi yalnız onun hərbi və milli təhlükəsizlik məsələlərinə təsirlə yekunlaşmır. Bu, həm də yerli ictimai rəyin kənar təsirlərə məruz qalmasına və idarə edilməsinə, ölkənin idarəçilik sisteminin pozulmasına və iflic olmasına səbəb ola bilər. Mütəxəssislərin fikrincə, xarici texnologiyanın mövcud gücü ilə hazırda ayrı-ayrı ölkələrin daxili idarəçilik sistemləri arasındakı rabitə əlaqələrini nəinki kəsmək və pozmaq, hətta bu sistemə girərək, dezinformasiya yaymaq yolu ilə onların fəaliyyətini yönəltmək və sarsıtmaq mümkündür. Bu da həmin ölkələrin daxili sabitliyini, idarəetmə orqanlarının ahəngdar fəaliyyətini pozur ki, nəticədə milli təhlükəsizliyə xarici müdaxilə üçün əlverişli şərait yaranır.

Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir.

İnformasiya təhlükəsizliyi siyasətinə toxunan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev vurğulamışdır ki, "Hazırda bizə qarşı dünyada sistemli informasiya müharibəsi aparan qüvvələr mövcuddur. Elə ölkələr var ki, orada nəinki hər həftə, hər gün Azərbaycanla bağlı böhtan xarakterli yazılar dərc edirlər. Təbii ki, bu əlaqələndirilmiş bir anti-Azərbaycan siyasətidir. Bu işdə, ilk növbədə, erməni lobbisinin fəallığını qeyd etmək lazımdır. Onlar mütəmadi olaraq Azərbaycanın milli-mədəni dəyərlərini, real inkişafını və həqiqətlərini inkar edərək, onu geridə qalmış, antidemokratik, antixristian ölkə kimi dünyaya təqdim etməyə çalışır".

Azərbaycanın informasiya təhlükəsizliyi mühitinin mövcud vəziyyətinin təhlili göstərir ki, şəxsiyyət, dövlət və cəmiyyətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək  səviyyədə qorunması hazırda həm də ölkənin informasiya təhlükəsizliyi siyasətinin əsas məqsədi kimi çıxış etməli, onun dinamik inkişaf səviyyəsinin tələblərinə cavab verməlidir.

### İnformasiya təhlükəsizliyi və ona qarşı yönəlmiş təhdidlər

İnformasiya təhlükəsizliyinin ən zəif nöqtəsi insan faktorudur və ona qarşı yönəlmiş hücumların geniş yayılmasına Azərbaycanda da çox təsadüf edilir. Bu əsas insanlarla qarşılıqlı əlaqədə olaraq saxta profillərdən (başqa adla açılmış və ya hər hansı bir saxta şirkət, kampaniya və s.), virtual dostluq və tanışlıqdan istifadə etməklə aldatmaqdır. Əsas məqsəd isə bu yollarla etibar qazanmış mənbədən suiistifadə etməklə məlumat yığmaqdır.

Bu gün texnologiya həddən artıq inkişaf etdiyinə görə məlumat toplamaq istəyən qüvvələr yeni üsullara əl atır və onlar bu yolda uğurlu nəticələr əldə edirlər. Bu üsullara kompüter (mobil) oyunlarını misal gətirsək yanılmarıq. Belə ki, bəzi aparıcı dövlətlərin kəşfiyyat strukturları fəaliyyət taktikalarını dəyişmişlər. Onlar öz agentlərinə trilyonlarla pul xərcləmək istəmirlər. Əvəzində isə Yer kürəsinin hər bir insanı onların casusu ola bilər. Bu iş həm könüllü, həm də pulsuzdur. Məsələn, son zamanlar "Facebook"da "Pokemon Go Azerbaijan" səhifəsi yaradılıb və minlərlə istifadəçi tərəfindən bəyənilib. Məlumatlara görə, bu oyun ABŞ kəşfiyyatının yeni layihəsidir. Layihənin mahiyyəti ondan ibarətdir ki, oyun aludəçiləri xarici kəşfiyyat orqanını maraqlandıran obyektlərə yönləndirilir və çəkilən fotolar kəşfiyyat qərargahına daxil olur. Oyun zamanı istifadəçiyə tapşırıq verilir ki, müəyyən yerdə pokemon var və onu tutmaq lazımdır. Oyunçular işarə verilən yerə yönəlir və lazımi yerin fotosunu çəkirlər. Toplanan informasiyalar avtomatik olaraq kəşfiyyat bazasına daxil olur. Beləliklə, insanlar könüllü şəkildə lazımi yerlərin, obyektlərin, binaların fotolarını çəkir və xarici kəşfiyyata casusluq edirlər.

Həmçinin xarici kəşfiyyat tərəfindən maliyyə sərf etmədən məlumat toplamasının digər yolları da mövcuddur. Məsələn:

- "Taç pad" - Telefonun, yaxud kompüterin barmaq izi ilə açılması. Bu, insanların öz barmaq izlərini könüllü şəkildə xarici kəşfiyyata ötürməsi deməkdir.
- "Selfi" - Populyarlığı ilə xəstəliyə çevrilən selfi planetin bütün insanlarının öz fotolarını könüllü şəkildə xarici kəşfiyyat orqanının bazasına göndərməsinə şərait yaradır. Artıq "dərin güclər" dünyanın ən ucqar yerində yaşayan insanı da üzdən tanıyır. Onlar buna selfi sayəsində nail olublar.

### Hərbi qulluqçu və informasiya təhlükəsizliyi

İnformasiya təhlükəsizliyi hər sahədə olduğu kimi, hərbi sahədə də öyrənilməli və bütün şəxsi heyətin məlumatlandırılması təmin olunmalıdır. Əks halda təhdidlərin yaranması qaçılmaz olacaqdır. Müasir texnologiya bir çox üstünlüklər təqdim etməklə yanaşı, müəyyən problemlər də yaradır. Məsələn, smartfon tipli mobil telefonlardan istifadə etməklə hərbi qulluqçular tərəfindən xidmət etdikləri hərbi hissələrin və ya hərbi texnikanın foto və video görüntülərin yayılması informasiya təhlükəsizliyi baxımından çox təhlükəli haldır.

Döyüş əməliyyatları zamanı və sonra informasiya təhlükəsizliyi qaydaları hərbi qulluqçular tərəfindən dəfələrlə pozulur. Misal üçün "Filan istiqamətdə yer azad elədik", "Bu bizim yeni qazdığımız səngərdir" və s. ifadələr başlığı altında məlumatlar paylaşılır ki, bu üsulla da cəbhədəki vəziyyət haqqında bütün lazımi informasiyanı düşmən əldə edə bilir. Eyni zamanda, erməni tərəfi sosial şəbəkələrdə saxta profillər yaradaraq cəbhə zonasında bizim hərbi qulluqçular tərəfindən çəkilən şəkillərin, videoçarxların şərh bölməsinə aldadıcı suallar, şərhlər yazaraq məlumat toplamağa cəhd edirlər və bəzən bu haqda xəbərdar olmayan hərbçilər onlara öz istək və təəssüratlarını açıq şəkildə çatdırırlar. Beləliklə, erməni xüsusi xidmət orqanları tərəfindən məlumat toplamaq üçün hər hansı bir kəşfiyyat xarakterli əməliyyat keçirilməsinə ehtiyac qalmır və onlar məlumatın əksər hissəsini açıq mənbələrdən toplayırlar.

Bu kimi təhlükələrdən qorunmaq və gələcəkdə qarşısının alınması üçün müvafiq qaydalar mövcuddur və hərbi qulluqçulardan (habelə, hərbi hissələrdə çalışan mülki şəxslərdən) bu qaydalara riayət edilməsi tələb olunur. Azərbaycan Ordusunda informasiya təhlükəsizliyi tədbirlərinin təşkili üzrə əsas qanunlar, əmr və sərəncamlar aşağıda göstərilmişdir:

1. "Dövlət sirri haqqında"  Azərbaycan Respublikasının Qanunu;
2. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı;
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Maddə: 274, 276, 284, 285;
4. Azərbaycan Respublikasının müdafiə nazirinin və müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq əmr, sərəncam və göstərişləri.

Hərbi qulluqçu bilməlidir ki, hərbi hissə ilə bağlı məlumatların başqa şəxsin və ya şəxslərin əlinə keçməsi informasiyanın konfidensiallığının pozulması deməkdir. Bu səbəbdən, Sosial mühəndislik hücumlarından qorunmağın ən yaxşı yolu təhlükəsizlik qaydalarına riayət etməkdir. Məsələn:

- "Odnoklassniki", "İnstagram", "WhatsApp", "Skype" və s. sosial şəbəkələrində, habelə e-poçtunuzda hərbi xidmət fəaliyyətini əks etdirən foto və ya videoların nümayişi, xidməti məxfi məlumatların ötürülməsi və bu kimi sair fəaliyyətlər qadağandır;

(Ardı 8-ci səhifədə)



## Qürur və Zəfər tariximizi unutma!

**Cəbrayıl şəhəri - 4 oktyabr 2020-ci il**
**Füzuli şəhəri - 17 oktyabr 2020-ci il**
**Zəngilan şəhəri - 20 oktyabr 2020-ci il**
**Qubadlı şəhəri - 25 oktyabr 2020-ci il**
**Şuşa şəhəri - 8 noyabr 2020-ci il**
**Ağdam rayonu - 20 noyabr 2020-ci il**
**Kəlbəcər rayonu - 25 noyabr 2020-ci il**
**Laçın rayonu - 1 dekabr 2020-ci il**
**Xankəndi şəhəri - 19-20 sentyabr 2023-cü il**
**Xocalı rayonu - 19-20 sentyabr 2023-cü il**
**Xocavənd rayonu - 19-20 sentyabr 2023-cü il**
**Ağdərə rayonu - 19-20 sentyabr 2023-cü il**

*Bu şanlı tarixi Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında qəhrəman Azərbaycan əsgəri qanı-canı bahasına yazdı.*

## Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(Əvvəli 7-ci səhifədə)**

- Sərhədboyu ərazilərdə yayımlanan, mənbəsi naməlum olan və ya xarici ölkələr, xüsusən də Ermənistan tərəfindən, açıq Wi-Fi internet şəbəkələrindən istifadə etmək qadağandır;
- Hərbi hissəyə dair sənədlərin mülki obyektlərdəki kompüter texnikasında hazırlanması və çap edilməsi qadağandır;
- Hərbi hissələrdə şəxsi kompüterlərdə xidməti sənədlərin, habelə məxfi qrifli sənədlərin hazırlanması, saxlanılması və ya çap edilməsi qadağandır;
- Hərbi hissədə smartfon tipli mobil telefonlardan istifadə edilməsi qadağandır və sair.

Beləliklə, hərbi qulluqçuların hərbi hissənin ərazisində şəxsi kompüterlərdən, smartfon tipli mobil telefonlardan istifadə etməsi, eləcə də sosial şəbəkələr vasitəsilə xarici ölkə vətəndaşları və yaxud tanımadıqları şəxslərlə münasibət yaradıb, onların təsiri altına düşməsi halları, məxfi məlumatların kənar şəxslərə sızmasına əlverişli şərait yaradaraq, həmin məlumatların xarici xüsusi xidmət orqanlarının maraq dairəsinə düşməsinə imkan verir və bu da öz növbəsində arzuolunmaz fəsadlara yol aça bilər.

Bu baxımdan, Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu informasiya təhlükəsizliyi qayda-qanunlarına riayət etməli və informasiya təhlükəsizliyinə cavabdeh şəxs kimi bilavasitə özü olduğunu bilməlidir.

**İdeoloji Təminat İdarəsi**

## *Hərbi texnikalar, silahlar*

### SPİKE-ER tank əleyhinə idarəolunan raket Sandcat üzərində



Tank əleyhinə idarəolunan Spike-ER raketi müasir tipli dinamik qoruyucu ilə təchiz edilmiş zirehli texnikaların gündüz, gecə və məhdud hava şəraitində termal nişangah vasitəsi ilə məhv etmək imkanına malikdir.

Atış uzaqlığı 500 metrdən 8000 metrədək olan qurğunun yüksək dağlıq şəraitlərdə istifadə imkanı 3000 metrədəkdir. Tank əleyhinə idarəolunan raketin kalibri 150 millimetrdir. Zirehdəlmə qabiliyyəti 1000 millimetr olan qurğunun konteynerinin uzunluğu 1660 millimetrdir. Döyüş hissəsinin tipi tandem kumulyativ olan SPİKE-ER tank əleyhinə idarəolunan raketin çəkisi 34 kiloqramdır.

**"Azərbaycan Ordusu"**

## *Maraq dünyamız*

### Heyvanlar haqqında bəzi maraqlı faktlar

✔Uça bilən yeganə məməli yarasadır. Onun ayaq sümükləri o qədər incədir ki, yeriyə bilmir.
✔İlanın gözləri bağlı olsa belə, göz qapaqlarının arxasından görə bilir.
✔Ağ tüklü xəzlərinə baxmayaraq, qütb ayılarının dərisi əslində qaradır.
✔Timsahlar və köpəkbalıqları 100 ilə qədər yaşayır.
✔Bal arısının iki mədəsi var - biri bal, digəri qida üçün.
✔Mavi balinalar Yer üzündə yaşayan ən böyük canlılardır.
✔Sancaq böcəyi (hamamböcəyi) başsız halda təxminən bir həftə yaşaya bilir.
✔Xəstə və ya yaralı delfin kömək üçün səs siqnalları göndərir, digər delfinlər onu suyun üzərinə qaldıraraq nəfəs almasına kömək edirlər.
✔Köpəkbalıqları xərçəng xəstəliyi də daxil olmaqla, bütün xəstəliklərə qarşı demək olar ki, immunitetlidirlər.
✔Ağcaqanadın iynəvari ağız hissəsi 47 iti kənara malikdir və bu, dərini və qoruyucu paltarları dəlib keçməyə kömək edir.

# İdman



### Stolüstü tennisçilər Özbəkistanda 7 medal qazanıblar

Azərbaycanın stolüstü tennisçiləri Özbəkistanın Andijan şəhərində Rafik Şiriyevin xatirəsinə həsr olunan ənənəvi turnirdə uğurla çıxış ediblər.

Yarışda ən yaxşı nəticəni Mehin Mirzəbalayeva göstərib. 13 yaşadək idmançılar arasında bütün rəqiblərinə qalib gələn istedadlı idmançı fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yalnız finalda uduzan Gülnur Kərimli (U 11) ikinci, Səidə Quluzadə (U 13) ilə Yağmur Məmmədli (U 15) üçüncü yeri tutublar.

Mayın 13-dən 16-dək Daşkənddə təşkil olunan "WTT Youth Contender" turnirində isə Onur Quluzadə ikinci, Cəfər Alməmədli ilə Mehin Mirzəbalayeva üçüncü olub. Beləliklə, gənclərdən ibarət milli komandalar 7 mükafat əldə ediblər.

### Azərbaycanın stolüstü tennisçisi Ginnesin Rekordlar Kitabına düşüb



Stolüstü tennisçi Nihad Məmmədov adını Ginnesin Rekordlar Kitabına yazdırıb.

Bununla bağlı müvafiq qurumdan rəsmi təsdiq sənədi göndərilib.

Xatırladaq ki, milli komandanın üzvü bu ilin aprel ayında "Şüa İdman Kompleksi"ndə təşkil olunan mərasimdə topu uzaq məsafədən oyuna daxil etməkdə qeydə alınan dünya rekordunu yeniləməyə cəhd göstərib. Gənclər və İdman Nazirliyinin, Stolüstü Tennis Federasiyasının rəsmilərinin və beynəlxalq dərəcəli hakim Zaur Mikayılovun nəzarəti ilə bu hərəkəti 18.20 metr məsafədən uğurla həyata keçirib.

Qeyd edək ki, həmin rekord (17.50) son olaraq türkiyəli Osman Gürcüyə məxsus idi.




### Azərbaycanın iki yunan-Roma güləşçisi Avropa çempionu olub

Bolqarıstanın Samokov şəhərində güləş üzrə U-15 Avropa çempionatı davam edir.

Yunan-Roma güləşi üzrə Azərbaycan millisinin 2 üzvü fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Hüseyn Əmrahlı (38 kq) finalda estoniyalı Daniel Samuelə tam üstünlüklə (9:0) qalib gələrək Avropa çempionu olub.

Paşa Aslan (44 kq) isə həlledici görüşdə ermənistanlı Paşa Xudoyanı 4:1 hesabı ilə üstələyərək qitənin ən güclüsü ünvanına sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



### Qazaxıstan sülhməramlıları Colan yüksəkliklərindən qayıdıblar

Almatı Beynəlxalq Hava Limanında Colan yüksəkliklərində BMT missiyasının tərkibində xidmətini başa vurmuş ikinci milli sülhməramlı kontingentin 70 hərbçisinin təntənəli qarşılanma mərasimi keçirilib.

Qazaxıstan Müdafiə Nazirliyi xəbər verir ki, sülhməramlıları vətənə Hava Hücumundan Müdafiə Qüvvələrinə məxsus A-400 hərbi-nəqliyyat təyyarəsi çatdırıb.

Xidmət dövründə kontingent mindən çox tapşırıq yerinə yetirib. Bunlara 798 patrul xidməti, 56 təlim, 63 partlayış təhlükəli əşyanın zərərsizləşdirilməsi, rəsmi şəxslərin 15 dəfə müşayiəti və 57 müvəqqəti müşahidə məntəqəsinin yerləşdirilməsi daxildir.

Sülhməramlıların ikinci qrupunun mayın 28-də qayıtması planlaşdırılır.

### ABŞ Hərbi Dəniz Qüvvələri Hörmüz boğazında 10 dəniz minası aşkarlayıb



ABŞ Hərbi Dəniz Qüvvələri Hörmüz boğazında yerləşdirilmiş azı 10 dəniz minası aşkar edib.

Bu barədə "CBS News" telekanalı vəziyyətlə tanış olan ABŞ rəsmilərinə istinadla məlumat yayıb.

Telekanalın qeyd etdiyi kimi, son məlumatlarda yer alan minaların dəqiq növləri açıqlanmayıb.

Mart ayında "CBS News" ABŞ kəşfiyyatının Hörmüz boğazında ən azı 12 sualtı minanın olduğunu ehtimal etdiyini bildirmişdi. Həmin vaxt rəsmilər İranın boğazda istifadə etdiyi minaların yerli istehsal olan "Maham 3" və "Maham 7" tipli minalar olduğunu qeyd etmişdilər.

Bu ayın əvvəlində ABŞ ordusu boğazda Beynəlxalq Ayrılma Xəttinin cənub marşrutu boyunca ticarət gəmilərini istiqamətləndirməyə başlayıb. ABŞ Hərbi Dəniz Qüvvələri bir neçə həftə ərzində Omana yaxın ərazidə yerləşən bu marşrutu minalardan təmizləyib.

ABŞ tərəfi xəbərdarlıq edib ki, İranın yerləşdirdiyi minalar səbəbindən adi marşrut üzrə keçid "son dərəcə təhlükəli" ola bilər. May ayında Pentaqon İranın aprelin 23-də Hörmüz boğazında yeni minalar yerləşdirdiyini açıqlamışdı.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Manafova Səkinə Güləhməd qızına verilmiş AD № 0038134 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Fuad CƏFƏROV

Lisenziya № 361
Sifariş № 522
Nüsxə 3653